QANUN № 06 (380), 2026, s. 193-198

Kazımova Nərminə Tofiq qızı,
Milli Aviasiya Akademiyasının magistrantı
E-mail: kazimovnrmin@gmail.com

UOT 342.25:352
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0181

YERLİ ÖZÜNÜİDARƏETMƏNİN DÖVLƏT İDARƏETMƏ SİSTEMİNDƏ YERİ

Açar sözlər: *yerli özünüidarəetmə, yerli idarəetmə, bələdiyyə, yerli demokratiya, dövlət nəzarəti, maliyyə müstəqilliyi, səlahiyyət bölgüsü.*

Ключевые слова: *местное самоуправление, местная администрация, муниципалитет, местная демократия, государственный контроль, финансовая независимость, разделение властей.*

Keywords: *local self-government, local administration, municipality, local democracy, state control, financial independence, division of powers.*

Yerli özünüidarəetmə müasir demokratik cəmiyyətin əsas institutlarından biri olub, əhalinin yaşadığı ərazi üzrə yerli məsələlərin bilavasitə və ya seçkili orqanlar vasitəsilə idarə olunmasını təmin edir. Bu institut yalnız idarəetmə mexanizmi deyil, həm də demokratik cəmiyyətin formalaşmasının mühüm göstəricisidir. Bu sistem müxtəlif ölkələrdə siyasi rejimə, dövlət quruluşuna, inzibati-ərazi bölgüsünə və milli ənənələrə uyğun şəkildə formalaşmışdır. Yerli özünüidarəetmə vətəndaşların yerli əhəmiyyətli məsələlərdə iştirakını təmin etməklə demokratiyanın inkişafında mühüm rol oynayır, idarəetmənin səmərəliliyini artırır. Bu baxımdan, yerli özünüidarəetmə həm dövlət idarəetmə sisteminin ayrılmaz hissəsi, həm də cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm amil kimi çıxış edir [1].

Yerli özünüidarəetmə dedikdə, əhalinin yerli əhəmiyyətli məsələləri müstəqil şəkildə həll etmək hüququ başa düşülməlidir. Bu hüquq bilavasitə və ya seçkili orqanlar vasitəsilə həyata keçirilir. Yerli özünüidarəetmənin əsas xüsusiyyətləri əhalinin idarəetmədə birbaşa iştirakı, müstəqil qərar qəbuletmə imkanı, yerli problemlərin operativ həlli, müstəqil hüquqi və maliyyə əsaslarının mövcudluğudur [2].

Demokratik prinsiplərə əsaslanan ölkələrdə idarəetmə sisteminin şaquli və üfüqi istiqamətləri və onlar arasındakı münasibətlər hakimiyyət qollarının müstəqil fəaliyyəti və bir-birini tamamlaması əsasında qurulur. Bu sistemin aşağı mərhələsində fəaliyyət göstərən yerli özünüidarə orqanları vətəndaşların azad iradəsi ilə, seçki yolu ilə formalaşır və onların maraqlarını ifadə edir. Belə orqanların əsas üstünlükləri şəffaf fəaliyyət göstərməsi, qərarların kollegial şəkildə qəbul edilməsi və əhalinin bu proseslərə birbaşa nəzarət edə bilməsidir. Yerli özünüidarəetmə insanların sərbəst səsvermə nəticəsində yaratdıqları xüsusi idarəetmə qurumları kimi xarakterizə olunur; bu qurumlar müəyyən müstəqilliyə malik olsalar da, onların səlahiyyətləri, maliyyə resursları və fəaliyyət mexanizmləri qanunvericiliklə tənzimlənir. Bu cür seçkili formalaşma prinsipi xüsusilə Avropa Şurasına üzv dövlət-

lərdə əsas şərt hesab olunur və digər demokratik ölkələrdə də geniş tətbiq edilir. Yerli özünüidarəetmənin mahiyyəti beynəlxalq hüquqi sənədlərdə, xüsusilə 15 oktyabr 1985-ci il tarixli "Yerli özünüidarə haqqında" Avropa Xartiyasında öz əksini tapmışdır; həmin sənədə görə yerli özünüidarəetmə yerli icmaların qanun çərçivəsində öz məsuliyyətləri daxilində ictimai işlərin mühüm hissəsini əhalinin rifahı naminə idarə etmək hüququ və imkanını ifadə edir və bu səlahiyyətlər azad, gizli, bərabər və ümumi seçkilər nəticəsində formalaşmış nümayəndəli orqanlar vasitəsilə həyata keçirilir [3].

Azərbaycan Respublikasında yerli özünüidarə institutları olan bələdiyyələr ilk dəfə 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyada hüquqi əsasını tapmışdır. Konstitusiyanın IV bölməsi bütövlükdə yerli özünüidarəetməyə həsr olunmuş və burada bələdiyyələrin təşkili, səlahiyyətləri, qərarlarının icrası və müstəqilliyinin təmin olunması məsələləri öz əksini tapmışdır [2]. Xüsusilə 142-ci maddədə qeyd edilir ki, Azərbaycanda yerli özünüidarə seçkilər əsasında formalaşan bələdiyyələr vasitəsilə həyata keçirilir və bu orqanlara seçkilərin keçirilməsi, eləcə də onların hüquqi statusu qanunvericiliklə tənzimlənir. Konstitusiyamızın 143-cü maddəsinə əsasən isə bələdiyyələr öz fəaliyyətlərini iclaslar, daimi və digər komissiyalar vasitəsilə təşkil edirlər. Ölkədə ilk bələdiyyə seçkiləri 1999-cu ildə keçirilmiş və həmin dövrdə 2669 bələdiyyə təşkil edilərək fəaliyyət göstərmişdir; sonrakı illərdə onların sayı artaraq 2009-cu ildə 2757-yə çatmışdır. Azərbaycanda bələdiyyələrin formalaşdırıldığı ilk illərdə təxminən 2700 bələdiyyə mövcud idi. "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli qanuna əsasən 1400 bələdiyyənin birləşməsi nəticəsində 480 yeni bələdiyyə yaradılmış və ölkə üzrə bələdiyyələrin ümumi sayı 685 olaraq müəyyənləşdirilmişdir [4].

Yerli özünüidarə orqanlarının səlahiyyət dairəsi əsasən konstitusiya və qanunvericilik aktları ilə müəyyənləşdirilsə də, bu onlara əlavə səlahiyyətlərin verilməsi imkanını istisna etmir. Bu orqanlar öz səlahiyyətlərinə aid olan və digər hakimiyyət strukturlarına verilməmiş məsələlər üzrə qanun çərçivəsində sərbəst təşəbbüs göstərmək hüququna malikdirlər. İdarəetmədə əsas yanaşma ondan ibarətdir ki, dövlət səlahiyyətləri mümkün qədər vətəndaşlara daha yaxın olan yerli səviyyədə həyata keçirilsin, bu isə idarəetmənin səmərəliliyini artırır. Eyni zamanda, yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər, bir qayda olaraq, tam və müstəsna xarakter daşımalı, yalnız qanunla müəyyən edilmiş hallarda məhdudlaşdırılmalıdır. Mərkəzi və regional orqanların müəyyən səlahiyyətləri yerli qurumlara ötürülərkən isə həmin orqanların real imkanları və yerli şərait mütləq nəzərə alınmalıdır [3].

Azərbaycan Respublikasında dövlət hakimiyyəti orqanları bələdiyyələrin formalaşması və inkişafı üçün tələb olunan hüquqi bazanı, təşkilati mexanizmlər və maddi-maliyyə imkanlarını təmin edir, eyni zamanda əhalinin yerli özünüidarə hüququndan səmərəli şəkildə istifadə etməsinə dəstək göstərir [4].

Respublikamızda yerli ictimai xidmətlərin təşkili və icrası həm birbaşa mərkəzi icra hakimiyyətinə tabe olan yerli icra hakimiyyəti orqanları, həm də əhali tərəfindən seçilən bələdiyyələr vasitəsilə həyata keçirilir. Lakin qeyd olunan institutların səlahiyyət və funksional çərçivəsinin müqayisəli təhlili onların fəaliyyət sahələri arasında ciddi paralellik və institusional təkrarlanmanın mövcudluğunu ortaya qoyur. Bu hal praktiki müstəvidə səlahiyyətlərin qeyri-müəyyən bölgüsünə və idarəetmə prosesində koordinasiya problemlərinə səbəb olmaqla yanaşı, real idarəetmə resurslarının əsasən icra hakimiyyəti strukturlarında cəmləşməsi ilə nəticələnir. Nəticədə, bələdiyyə institutları formal olaraq mövcud olsa da, onların funksio-

nal aktivliyi və təsir imkanları məhdudlaşır. Belə bir model çərçivəsində bələdiyyələrin maliyyə müstəqilliyi, qərarvermə suverenliyi və idarəetmə elastikliyi əhəmiyyətli dərəcədə məhdudlaşır ki, bu da öz növbəsində vətəndaş cəmiyyətinin inkişaf perspektivlərinə və effektiv desentralizasiya proseslərinə mənfi təsir göstərir. Ümumilikdə, Azərbaycanda idarəetmə sisteminin mərkəzləşmiş xarakteri qorunub saxlanılır və formalaşmış yerli idarəetmə modeli daha çox "təmsilçi" xüsusiyyət daşıyaraq klassik "muxtar yerli özünüidarəetmə" modelindən fərqlənir [8].

Bəzi normativ və nəzəri mənbələrdə yerli özünüidarə və bələdiyyə anlayışları eyni məna daşıyan terminlər kimi təqdim olunur ki, bu yanaşmaya Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsində də rast gəlinir. Həmin maddəyə əsasən, yerli özünüidarə bələdiyyələr vasitəsilə həyata keçirilir və bu orqanlar seçki yolu ilə formalaşdırılır. Bununla belə, yerli özünüidarə sahəsinə aid qanunvericilik aktlarının ümumi təhlili göstərir ki, "yerli özünüidarə" anlayışı "bələdiyyə" anlayışından daha geniş məzmun kəsb edir. Belə ki, yerli özünüidarəetmə hüququnun həyata keçirilməsi yalnız seçkili bələdiyyə orqanlarının fəaliyyəti ilə məhdudlaşmır; vətəndaşlar bu hüququ yerli rəy sorğuları, vətəndaş yığıncaqları və qanunvericiliklə müəyyən edilmiş digər birbaşa iştirak formaları vasitəsilə də reallaşdıra bilərlər. Fikrimizcə, yerli özünüidarəetmə hüququnun həyata keçirilməsi mexanizmlərinin Konstitusiyada daha dolğun şəkildə əks etdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinin I hissəsinin təkmilləşdirilməsi məsələsinə baxılması məqsədəuyğun olardı. Bu kontekstdə həmin normanın "Yerli özünüidarə Azərbaycan Respublikasının vətəndaşları tərəfindən bələdiyyələr, yerli rəy sorğuları, vətəndaş yığıncaqları və qanunvericiliklə müəyyən edilmiş digər iştirak formaları vasitəsilə həyata keçirilir" redaksiyasında ifadə edilməsi yerli özünüidarəetmənin mahiyyətini daha dolğun əks etdirə bilər.

Azərbaycanda yerli özünüidarəetmə seçkilər yolu ilə formalaşan bələdiyyələr vasitəsilə həyata keçirilir və bu orqanlar şəhər, qəsəbə və kəndlərdə fəaliyyət göstərir. Türkdilli dövlətlərin bəzilərində bu institutun təşkilati forması fərqli şəkildə qurulmuşdur. Məsələn, Qazaxıstanda yerli özünüidarə rayon tabeli şəhər, kənd və qəsəbələrdə fəaliyyət göstərən akimlər (hakim) vasitəsilə təmin olunur. Qırğızıstanda bu funksiyanı müxtəlif səviyyələrdə fəaliyyət göstərən şəhər və kənd meriyaları (icra başçısı) yerinə yetirirlər. Özbəkistanda yerli özünüidarə əsasən vətəndaş yığıncaqları formasında təşkil olunur və şəhər tipli qəsəbələrdə, kəndlərdə və məhəllələrdə fəaliyyət göstərir. Türkmənistanda isə yerli özünüidarəetmə orqanları etrap (rayon) çərçivəsində şəhər, qəsəbə və kənd dairələrində yaradılır. Beləliklə, yerli özünüidarə institutlarının təşkilati quruluşu hər bir ölkənin inzibati idarəetmə modelinə uyğun olaraq fərqlənir.

Qazaxıstanla müqayisədə Azərbaycanda yerli özünüidarəetmə institutunun formalaşması fərqli institusional çərçivədə baş versə də, hər iki ölkədə mərkəzləşmiş idarəetmə ənənəsinin davamlı təsiri müşahidə olunur. Azərbaycanda bələdiyyələr formal olaraq seçkili və hüquqi baxımdan müstəqil subyektlər kimi təsbit edilsə də, onların maliyyə müstəqilliyi və icra hakimiyyəti orqanları ilə münasibətlərdə funksional asılılıq elementləri mövcud olur.

Qazaxıstanda yerli icra hakimiyyətinin başçıları olan akimlərin mərkəz tərəfindən təyin edilməsi və yerli nümayəndəli orqanların (maslikhatların) məhdud büdcə və nəzarət səlahiyyətləri yerli özünüidarəetmənin institusional inkişafını məhdudlaşdırır. Bu baxımdan, hər iki ölkədə desentralizasiya daha çox inzibati xarakter daşıyır və real siyasi səlahiyyətlərin yerli səviyyəyə ötürülməsi məhdud formada həyata keçirilir. Nəticə etibarilə, həm Azərbaycanda, həm də

Qazaxıstanda yerli idarəetmənin effektivliyinin artırılması üçün yalnız normativ hüquqi bazanın təkmilləşdirilməsi deyil, eyni zamanda maliyyə müstəqilliyinin genişləndirilməsi, hesabatlılıq mexanizmlərinin gücləndirilməsi və mərkəzi hakimiyyətlə yerli özünüidarəetmə orqanları arasında münasibətlərdə institusional balansın təmin olunması zəruri hesab olunur [5].

Azərbaycan ilə müqayisədə Türkiyədə yerli idarəetmə orqanları konstitusion təminata və uzunmüddətli seçkili ənənəyə malik olsa da, böyükşəhər modelinin genişləndirilməsi nəticəsində qərarvermə prosesləri daha çox iri şəhər mərkəzlərində və dolayı yolla mərkəzi hakimiyyətin təsir dairəsində cəmləşmişdir. Azərbaycanda isə bələdiyyələr seçkili orqanlar kimi fəaliyyət göstərir, onların həm maliyyə, həm də inzibati imkanlarının məhdudluğu və icra hakimiyyəti strukturları ilə paralel fəaliyyət mexanizmi yerli özünüidarəetmənin real təsir gücünü zəiflədir. Hər iki ölkədə maliyyə resurslarının əsasən mərkəzi büdcədən asılı olması, yerli gəlir bazasının zəifliyi və inzibati nəzarət mexanizmlərinin geniş tətbiqi yerli səviyyədə müstəqil siyasət formalaşdırılmasını məhdudlaşdırır. Türkiyədə yerli idarəetmənin institusional və tarixi baxımdan daha inkişaf etmiş olması ilə müqayisədə Azərbaycanda bu institutun daha çox formalaşma mərhələsində olması əsas fərqləndirici xüsusiyyət kimi çıxış edir. Mövcud problemlərin həlli üçün bələdiyyə–vətəndaş münasibətlərinin gücləndirilməsi, şəffaflığın artırılması, vergi mexanizmlərinin təkmilləşdirilməsi və ictimai nəzarətin gücləndirilməsi vacibdir. Eyni zamanda, kiçik və məhdud resurslara malik bələdiyyələrin birləşdirilməsi onların daha effektiv fəaliyyət göstərməsinə şərait yarada bilər. Gələcəkdə bələdiyyələrin inkişafı üçün onlara imkanlarına uyğun əlavə səlahiyyətlərin verilməsi, maliyyə bazasının gücləndirilməsi və beynəlxalq təcrübədən faydalanılması mühüm əhəmiyyət kəsb edərdi [6].

Yerli özünüidarəetmə orqanları-bələdiyyələr cəmiyyətin demokratik inkişafında, vətəndaş iştirakının artırılmasında və dövlət idarəçiliyinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır. Bələdiyyələrin fəaliyyəti ilə bağlı müəyyən problemlər də mövcuddur. Əsas çətinliklərdən biri vətəndaşlarla münasibətlərin yetərincə effektiv qurulmamasıdır. Şəffaflığın zəif olması, maliyyə resurslarının məhdudluğu, yerli vergilərin tam toplanılmaması və bəzi hallarda vətəndaşların iştirak səviyyəsinin aşağı olması bu sahədə əsas maneələrdəndir. Bir çox hallarda seçicilər yalnız seçki zamanı aktiv olur, sonrakı dövrdə isə bələdiyyələrin fəaliyyətinə nəzarət etmirlər. Digər tərəfdən sahibkarların və müxtəlif obyektlərin bələdiyyələr qarşısında maliyyə öhdəliklərini tam yerinə yetirməməsi də yerli büdcə gəlirlərinin azalmasına səbəb olur. Ölkənin uzun müddət – təxminən 70 il ərzində mərkəzləşdirilmiş idarəetmə prinsiplərinə əsaslanan sovet sistemi çərçivəsində fəaliyyət göstərməsi yerli özünüidarəetmədə bu cür problemlərin yaranmasına səbəb olmuşdur. Xüsusilə son iyirmi ildə ölkədə müşahidə olunan sürətli sosial-iqtisadi inkişaf və demoqrafik strukturda gənc əhalinin payının artması yerli xidmətlərin yenidən təşkili və müasir tələblərə uyğun normativ hüquqi bazanın təkmilləşdirilməsini zəruri edir. Bu kontekstdə həyata keçiriləcək islahatlar yerli idarəetmə sisteminin daha şəffaf, səmərəli və demokratik əsaslar üzərində qurulmasına mühüm töhfə verə bilər [7].

Bələdiyyə institutlarının qarşılaşdığı maliyyə problemlərinin aradan qaldırılması, onların səlahiyyətlərinin genişləndirilməsi və funksional məsuliyyət dairəsinin artırılması yerli idarəetmənin institusional potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı bələdiyyələrin yerli səviyyədə xidmət əhatə dairəsinin genişləndirilməsinə yönəlmiş müasir və sistemli normativ hüquqi aktların qəbul edilməsi

zəruri hesab olunur. Bu istiqamətdə həyata keçiriləcək islahatlar orta və uzunmüddətli perspektivdə bələdiyyələrin maddi-texniki bazasının möhkəmlənməsinə, maliyyə dayanıqlığının təmin olunmasına və nəticə etibarilə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə yardımçı ola bilər [9].

Yerli özünüidarəetmə institutu demokratik idarəetmənin mühüm elementi olsa da, Azərbaycan Respublikasında bələdiyyələrin fəaliyyətində mövcud olan struktur, maliyyə və institusional problemlər onların real təsir imkanlarını məhdudlaşdırır. Səlahiyyətlərin qeyri-dəqiq bölgüsü, maliyyə resurslarının məhdudluğu, kadr potensialının yetərli səviyyədə inkişaf etməməsi və dövlət idarəetmə sistemi ilə qarşılıqlı əlaqələrdə yaranan çətinliklər bu institutun effektiv fəaliyyətinə mane olur. Bu səbəbdən yerli idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində kompleks institusional islahatların həyata keçirilməsi zəruri görünür.

Yerli özünüidarəetmə sisteminin daha effektiv və müasir şəkildə fəaliyyət göstərməsi üçün bələdiyyələrin maliyyə müstəqilliyinin gücləndirilməsi ilə yanaşı, rəqəmsal idarəetmə mexanizmlərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Elektron vergi və rəqəmsal maliyyə idarəetmə sistemlərinin tətbiqi yerli vergilərin və ödənişlərin daha operativ, dəqiq və şəffaf şəkildə toplanmasına imkan yarada bilər. Bu isə həm büdcə gəlirlərinin artmasına, həm də maliyyə nəzarətinin daha effektiv həyata keçirilməsinə şərait yaradar. Eyni zamanda, rəqəmsal idarəetmə platformaları vasitəsilə büdcə xərclərinin ictimaiyyət üçün açıq şəkildə təqdim olunması vətəndaş nəzarətini gücləndirə, şəffaflıq səviyyəsini yüksəldə və korrupsiya risklərini minimuma endirə bilər.

Müasir informasiya texnologiyalarının yerli idarəetmədə tətbiqi bələdiyyələrin fəaliyyətinin operativliyini və səmərəliliyini artırmaqla yanaşı, vətəndaşların idarəetmə prosesində iştirak imkanlarını da genişləndirə bilər. Bu baxımdan, elektron idarəetmə sistemlərinin inkişafı yerli özünüidarəetmənin institusional gücləndirilməsi və demokratik idarəetmə prinsiplərinin daha effektiv həyata keçirilməsi üçün mühüm istiqamətlərdən biri kimi qiymətləndirilə bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Mehdi Səlimzadə, Qədir Xəlilov. Yerli özünüidaetmə. – Bakı: Elm və Təhsil, – 2010. – s. 9-16

2. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/897

3. "Yerli özünüidarə haqqında" Avropa Xartiyası. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/1026

4. Bələdiyyələrlə İş baş idarəsi, "Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə dair qanunvericiliyin tələbləri barədə tövsiyə," 2022. [Elektron resurs]/URL: https://belediyye.gov.az/news/tovsiy.

5. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasınını Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/4770.

6. Demet Dönmez Soner Akın, Karşılaştırmalı Yerel İdareler, – 2021. – s. 67-68.

7. A. Berk, Sayıştay Dergisi, s. 47- 49.

8. F. Elma, "Demokrasinin kurumsallaşmasında yerel yönetimlerin rolü (Azerbaycan örneği)".

9. Seymur Abbasov, Erdal Bayrakcı. Azerbaycan'da Yerel Yönetim Geleneğinin Gelişimi Sürecinde. – s. 458-459, 31.12.2024.

Казимова Нармина Тофиг гызы,
магистрант Национальной авиационной академии

МЕСТО МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В СИСТЕМЕ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

РЕЗЮМЕ

Местное самоуправление, как важный элемент демократического управления, обеспечивает участие граждан в процессе принятия решений на местном уровне, повышает прозрачность и эффективность управления. Рассмотрены вопросы создания муниципалитетов в Азербайджанской Республике, их правовые основы и механизмы деятельности, обозначены их проблемы, связанные с финансовой независимостью, разделением полномочий и государственным контролем. По сравнению с моделями местного управления Турции, Казахстана и других тюркских государств, муниципалитеты в Азербайджане формально независимы, но централизованная система управления ограничивает их реальное влияние. Основными проблемами являются слабые финансовые ресурсы, неточное распределение полномочий, низкий уровень участия граждан и институциональные трудности в управлении. В результате подчеркивается важность расширения финансовой базы, повышения прозрачности, внедрения цифровых систем управления и совершенствования законодательства для укрепления местного самоуправления.

Kazimova Narmina Tofig,
Master’s student, National Aviation Academy

THE PLACE OF LOCAL SELF-GOVERNMENT IN THE STATE ADMINISTRATION SYSTEM

SUMMARY

Local self-government, as an important element of democratic management, ensures the participation of citizens in the decision-making process at the local level, increases transparency and efficiency in management. The establishment of municipalities in the Republic of Azerbaijan, their legal bases and mechanisms of action are examined, and their problems related to financial independence, division of powers and state control are indicated. Compared to the local governance models of Turkey, Kazakhstan and other Turkic states, municipalities in Azerbaijan are formally independent, but the centralized governance system limits their real influence. The main problems are weak financial resources, imprecise distribution of powers, low citizen participation and institutional difficulties in governance. As a result, the importance of expanding the financial base, increasing transparency, implementing digital management systems and improving legislation is emphasized for strengthening local self-government.

Redaksiyaya daxilolma tarixi: 23.05.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 18.06.2026
Çapa qəbul olunma tarixi: 19.06.2026